# Peşə təhsili müəssisələrinin işəgötürənlərlə əməkdaşlığı günün tələbidir

***Dekabrın 6-da Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının birgə təşkilatçılığı ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində peşə təhsili müəssisələri və işəgötürənlərin əməkdaşlığı məsələlərinə dair konfrans keçirilib.***

***Konfransın məqsədi dövlət və özəl sahə işəgötürənlərinin peşə təhsili müəssisələri ilə tərəfdaşlığa cəlb edilməsi və bu prosesin təşviq olunmasıdır.***

Konfransda əvvəlcə ölkəmizdə peşə təhsili sahəsində aparılan islahatlara dair videoçarx nümayiş etdirilib.

Tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq, rayonun sosial-iqtisadi inkişafı və görülən işlər barədə məlumat verib. O, çıxışında ölkə başçısı cənab İlham Əliyev tərəfindən peşə təhsilinin inkişafını təmin edən mühüm fərman və sərəncamların imzalandığını, peşə təhsilinin müasirləşdirilməsi və modernləşməsi ilə bağlı inkişaf etmiş dövlətlərin bu sahədəki qabaqcıl təcrübələrinin öyrənildiyini, bununla bağlı dövlət proqramlarının qəbul edildiyini bildirib.

Səbuhi Abdullayev kadr hazırlığı sahəsində mühüm əhəmiyyətə malik olan peşə təhsilinin dünya standartları səviyyəsinə qalxması üçün mütərəqqi təlim metodlarının tətbiq edildiyini, yeni dövrün tələblərinə cavab verən texnoloji bazanın yaradıldığını və hazırlanan kadrların məşğulluğunun təmin



olunmasının daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxışında özəl sektorun inkişafının Azərbaycan iqtisadiyyatının prioritetlərindən olduğunu, dövlətin iqtisadi siyasətində sahibkarlığın inkişafının əhəmiyyətini diqqətə çatdırıb, yaradılan iş yerlərinin səriştəli işçi qüvvəsi ilə təminatının vacibliyini vurğulayıb.

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev çıxış edərək Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında peşə



təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən işəgötürənlərin peşə təhsili sistemi ilə əməkdaşlığının möhkəmləndirilməsinin, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılmasının və təhsildə dövlət-özəl tərəfdaşlığı sisteminin həyata keçirilməsinin vacibliyini bildirib.

Tədbirdə Avropa İttifaqının Bakı ofisi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, BP, British Council və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ), həmçinin iri sahibkarlıq subyektlərinin nümayəndələri, yerli iş adamları çıxış edərək, mövzu ilə bağlı fikirlərini bildiriblər.

Konfransda peşə təhsili müəssisələri ilə dövlət-özəl əməkdaşlığı çərçivəsində işəgötürənlərin maraq və öhdəliklərinin müəyyənləşdirilməsi məqsədilə sahibkarlar arasında sorğu keçirilib.

Tədbir iştirakçıları, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində kadr hazırlığı üçün yaradılan şəraitlə tanış olublar.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Milli-mənəvi dəyərlərimizə həsr olunmuş konfrans keçirilib

***Dekabrın 1-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Milli mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu" mövzusunda konfrans keçirilib.***

***"Qafqaz Resort" Otelin konfrans zalında təşkil olunan tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Konfransı açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxışında milli dəyərlərimizin qorunması və inkişafının ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu, milli dəyərlərimizə, soykökümüzə qayıdışı, milli hisslərimizin oyanışını diqqət mərkəzində saxlayan ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə xalqımızın milli dirçəlişinin əsasının qoyulduğunu bildirib.

Səbuhi Abdullayev ümummilli liderin vəsiyyətlərinin, onun ideyalarının həyata keçirilməsi ilə bağlı bu gün müstəqil Azərbaycan gəncliyinin üzərinə çox böyük və məsuliyyətli vəzifələr düşdüyünü, millətin gələcəyi olan gənclərin cəmiyyətin ən perspektivli sosial təbəqəsi olduğunu diqqətə çatdırıb. O, bu gün nümunəvi təhsil almağın, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etməyin, yüksək intellektə malik modern və əsl vətəndaş kimi formalaşmağın müasir gəncliyin qarşısında duran hədəf olduğunu bildirib.




RİH-nin başçısı ümummilli lider Heydər Əliyevin milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini, ona görə də ölkəmizdə dövlət quruculuğu sahəsində gənclərin rolunun artırılması istiqamətində ulu öndər tərəfindən bir çox fərman və sərəncamlar imzalandığını, o cümlədən 29 iyul 1999-cu il tarixli Fərmanı ilə "Gənclər siyasəti haqqında" Proqram təsdiq olunduğunu qeyd edib.

Rayon icra hakimiyyətinin başçısı əsas ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycan gənclərinin çalışdıqları bütün sahələrdə özlərini doğrultduğunu, milli-mənəvi dəyərlərin sistem kimi formalaşdırılması prosesində gənclərimizin fəal mövqe tutduğunu və bu dəyərlərin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması istiqamətində çox böyük işlər gördüklərini qeyd edib.



Səbuhi Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilən "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının da ana xəttinin gənclərdə yüksək humanizm hisslərinin aşılanması, onların intellektual səviyyəsinin artırılması məqsədinə xidmət etdiyini vurğulayıb.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev çıxışında ölkədə qloballaşma hərəkatının, mədəni inteqrasiya və öz soykökünə bağlanma prosesinin önündə gedən gənc nəslin tarixin süzgəcindən keçən milli adətlərimizi və mənəvi dəyərlərimizi yaşatdığını, inkişaf etdirdiyini və təmin etdiyini qeyd edib.

İntiqam Babayev Azərbaycan Respublikasının müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərimizin qorunması və gənc nəslə aşılanmasının xüsusilə aktuallıq kəsb etdiyini, hər bir xalqın tarixi yetkinləşmə və təkamül prosesini dövlətçilik ənənələri ilə yanaşı, zəngin milli-mənəvi irsi, ali dəyərləri ilə də müəyyən etdiyini bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxışında ümummilli liderimiz Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təməl prinsiplərindən olan multikulturalizm və tolerantlığın əslində Azərbaycan xalqının həyat tərzi olduğunu, bu mənəvi dəyərlərimizin yaşadılması və inkişaf etdirilməsi istiqamətində möhtərəm Prezidentitmiz cənab İlham Əliyevin apardığı müdrik siyasət sayəsində ölkəmizdə multikulturalizm və tolerantlıq ənənələrinin möhkəmləndiyini bildirib.

Konfransda Qəbələ "Cümə Məscidi"nin imamı Saleh Şirinov, Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədri Nurəddin Mehdiyev, Azərbaycan respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov,YAP Qəbələ Rayon Gənclər Birliyinin sədri Namiq Ağayev,Yengicə kənd ümumi orta məktəbin müəllimi Günay Cəlilova, ASAN xidmətin əməkdaşı Şəbnəm Nərimanlı mövzu ətrafında çıxış ediblər.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev konfransı yekunlaşdırıb.

Sonda suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" filmi nümayiş etdirilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Milli-mənəvi dəyərlərimizi qoruyaq və təbliğ edək

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komistəsinin "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" birgə layihəsinə əsasən Qəbələ Rayon Təhsil Şöbəsində geniş tədbirlər planı hazırlanmış və bu sahədə bir sıra mühüm işlər görülmüşdür.

İlk növbədə ümumtəhsil məktəblərində "Milli-mənəvi dəyərlərimizi necə qorumalı", "Adət-ənənələrimiz milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi", "İslam sülh və barışıq dinidir", "Dini radikallıq cəmiyyətin bəlasıdır" və digər mövzulara həsr olunmuş dəyirmi masalar keçirilmişdir.

Ümumtəhsil məktəblərində qeyd olunan mövzuya dair keçirilən seminar-müşavirələrdə və diskussiyalarda şagirdlər fəallıq göstərmişlər. Həmin tədbirlərdə əsasən "Vətənpərvərlik ən böyük mənəvi dəyərdir", "Milli bayramlarımızın nümunəsində xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması" mövzuları diqqət mərkəzində olmuşdur. Diskussiya zamanı şagirdlər maraqlı fikir və və düşüncələrini söyləmişlər.

Məktəb kitabxanalarında təşkil olunmuş guşə və sərgilər də şagirdlər tərəfindən maraqla izlənilmişdir. Bu sahədə məktəb psixoloqlarının, uşaq birliyi rəhbərlərinin, kitabxanaçıların milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı apardığı izahatlar öz müsbət nəticəsini vermişdir.

Tədbirlər planına uyğun olaraq rayonun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə "Milli - mənəvi dəyərlərimiz haqqında düşüncələrim" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqədə 36 şagird iştirak etmişdir. Müsabiqə qaliblərinə rayon təhsil şöbəsində keçirilən konfransda fəxri fərman və diplomlar təqdim olunmuşdur.

**"Qəbələ"**